İPƏK YOLU, No.4, 2020, səh.127-131

# AZƏRMDOXT – SASANİ DÖVLƏTİNİN QADIN İMPERATORU

**Məhəmməd Əliyev**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan

**Xülasə**. Məqalədə erkən orta yüzilliklərdə Yaxın və Orta Şərgin ən güclü dövlətlərindən biri olan Sasani imperiysının tarixinə aid bir epizoddan təhlil edilmişdir. İlkin mənbələrin məlumatları əsasında göstərilir ki, Sasani şahənşahı II Xosrov Pərvizin qızı Azərmdoxt ağıllı, ədalətli və tədbirli bir hökmdar olmuşdur.

**Açar sözlər**: Azərmdoxt, Sasani imperiyası, II Xosrov Pərviz, Adurbadaqan, Turandoxt.

**AZERMDOHT - WOMAN EMPEROR OF THE SASANID STATE**

**Magamed Aliyev**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article analyzes an episode from the history of the Sassanid Empire, one of the most powerful states of the Near and Middle East in the early Middle Ages. Using the primary materials, it is shown that Azermdokht - the daughter of the Sassanian Emperor II Khosrov Parviz was a wise, just and calculating ruler.
**Keywords:** Azermdoxt, Sasanid Empire, II Khosrov Parviz, Adurbadaqan, Turandoxt.

**АЗЕРМДОХТ – ЖЕНЩИНА ИМПЕРАТОРИЦА САСАНИДСКОГО ГОСУДАРСТВА**

**Магамед Алиев**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье анализируется эпизод из истории Империи Сасанидов, одного из самых могущественных государств Ближнего и Среднего Востока в раннем средневековье. Используя первоисточные материалы, показывается, что дочь сасанидского императора II Хосрова Парвиза Азермдохт была мудрой, справедливой и расчетливой правительницой.
**Ключевые слова:** Азермдохт, Сасанидская империя, II Хосров Парвиз, Адурбадаган, Турандохт.

## 1. Giriş

Azərmdoxt Sasani imperiyasının sonuncu qüdrətli şahənşahı II Xosrov Pərvizin (590-628) qızı idi. Bunu əksər pəhləvi və onlara əsaslanan ərəb mənbələri bu cür təqdim edirlər. Məlum olduğu kimi, II Xosrov 628-ci ildə öz oğlu II Qubad Şuriyə tərəfindən gecə yataqda ikən qətlə yetirilmişdi. II Qubad Xosrovun Bizans imperatoru Mavrikinin (582-602) qızı Mariyadan olan oğlu idi [3, s.89-90]. II Qubad atası ilə bərabər özünün bütün qardaşlarını, o cümlədən atasının Şirin adlı arvadından olan vəliəhd Mərdanşahı da qətlə yetirdi [7]. Bu imperiya üçün böyük zərbə idi. Bu zərbədən Sasani imperiyası heç vaxt özünə gələ bilmədi. Atasının ölümü Azermdoxta bərk təsir etmişdi və o bu hərəkətinə görə II Qubadı tənqid etmişdi.

Lakin çox keçmədi ki, elə 628-ci ilin oktyabrında II Qubad o dövrdə bütün Yaxın və Orta Şərqi bürüyən vəba xəstəliyindən 38 yaşında vəfat etdi. Onu hakimiyətdə səkkiz yaşlı oğlu III Ərdəşir əvəz etdi. Lakin III Ərdəşir uşaq olduğu üçün şahənşah vəzifəsini yerinə yetirə bilmirdi. Ölkəni əslində hələ II Xosrovun dövründə yüksək dövlət vəzifəsində çalışan

Meh Azərquşnasp idarə edridi. Ümumiyyətlə, II Xosrovun ölümündən sonra ölkədə mərkəzi hakimiyyət tez-tez əldən-ələ keçir, bu da dövlətin daha da zəifləməsinə gətirib çıxarırdı. 630-cu il aprelin 27-də III Ərdəşir də vəfat etdi. Ökədə vəba xəstəliyi tüğyan edir, feodal ara müharibələri artır və amansız xarakter alırdı. III Ərdəşirin ölümündən sonra, II Xosrovun sərkərdələrindən biri Şəhrivaraz hakimiyyəti ələ keçirdi. Şəhrivaraz Mehranilər sülaləsindən idi [2]. Lakin Şəhrivarazın hakimiyyəti cəmi iki ay davam etdi. 630-cu ilin iyunun 9-da o, II Xosrovun keçmiş saray qulluqçularının biri tərəfindən qətlə yetirildi. Hakimiyyətə II Xosrovun böyük qızı Borandoxt qətirildi. Borandoxt bir il dörd ay hakimiyyətdə qaldı və onun dövründə mərkəzi hakimiyyət nisbətən sabitləşdi. Bir sıra məlumatlara görə 632-ci ilin iyulunda, başqa məlumatlara görə isə həmin ilin oktyabırında Borandoxt vəfat etdi.

Borandoxtun yerinə hakimiyyətə onun bacısı Azərmdoxt gəldi. Azərmdoxtun doğum tarixi haqqında məlumat çox azdır. Bir sıra məlumatlar a görə güman edilir ki, o, 600 və ya 601-ci ildə doğulmuşdur. Azərmdoxt adının pəhləvi dilindən tərcüməsi “Odlar qızı” deməkdir. Bəzi mənbələrdə Azərmdoxtun anasının Bizans imperatoru Mavrikinin qızı Mariya olduğu qeyd edilmişdir [6, s.190]. İran tarixşünaslığında isə Azərmdoxtun anasını Purandoxt olduğu göstərilmişdir.

Bir sıra pəhləvi mənbələri isə Azərmdoxtun anasının Turandoxt olduğunu göstərirlər. Bu mənbələr ən son tapılan mənbələr sırasındadır. Həmin mənbələr göstərir ki, Azərmdoxtun anası, imperiyanın Adurbadaqan əyalətindən idi. Ona görə də II Xosrov həmin arvadından doğulmuş qızına Azərmdoxt adı vermiş və övladları içərisində ən çox onun qayğısına qalmışdı. Azərmdoxt da öz atasını çox istəmişdi. Təsadüfi deyil ki, o, öz hakimiyyəti dövründə kəsilən pulların üzərinə məhz öz atasının şəkilini həkk etdirmişdi [5, s.79].

Rus tədqiqatçısı S.B.Daşkov Azərmdoxtun anasının məhz Mariya olduğunu iddia etmiş, lakin daha sonra bildirmişdir ki, o çox güclü atəşpərəst idi [1, s.194]. Burada müəllifin fikrində paradoks yaranır. Anası xristian olan bir şəxsin qatı atəşpərəst olması heç ağlabatan deyildir. Digər tərəfdən, S.B.Daşkov bu fikri yazarkən heç bir mənbədən sübut qətirmir. Sasani tarixinə dair bir neçə tədqiqat işinin müəllifi A.İ.Kolesnikov isə Azərmdoxtun anası haqqında məlumat verməmişdir [3, s.194].

II Xosrovun Adurbadaqana (Azərbayqana) tez-tez səfər etməsi və bu vilayətə xüsusi qiymət verməsi bu dövrdən bəhs edən əksər pəhləvi mənbələrində əks olunmuşdur [9, s.9-10]. “Tansarın məktubları”nda Xosrovun ümumiyyətlə şərg və qərb sərhədboyu əyalətlərə daha çox diqqət yetirməsi, atəşpərəstliyin baş məbədinin məhz Adurbadaqanda yerləşməsi ilə əlaqədar II Xosrovun da öz sələfləri kimi tez-tez bu diyara səfər etməsi qeyd edimişdir. Pəhləvi mətnlərində II Xosrovun məhz bu səfərlər nəticəsində Adurbadaqan ölkəsindən Turandoxt adlı bir əsilzadə qadınla nikahlanması məsələsindən qısa və üstuörtülü şəkildə bəhs edilmişdir. Bu izdivacdan onların bir qızı dünyaya gəlmiş, adını da II Xosrov özü Azərmdoxt –“Odlar qızı” qoymuşdu.

Mənbələrə görə, Azərmdoxt çox bacarıqlı və tədbirli bir hökmdar olmuşdu. Azərmdoxtun hakimiyyətə gəlməsində əsas rolu Piruz (Firuz) Xosrov oynamışdı. Piruz şahənşah II Xosrovun hakimiyyəti dövründə imperiya sarayında yaranmış separatçı Farsiq (pəhləvi) fraksiyasının rəhbəri idi. II Xosrovun ölümündən sonra Piruz Xosrov II Qubad Şuriyə tərəfindən baş vəzir təyin edilmişdi. II Qubadın göstərişi ilə onun qardaşlarını məhz Piruz Xosrov qətlə yetirmişdi. II Qubadın ölümündən sonra Piruz Xosrov şah qvardiyasının başçısı - *hazarbed* təyin edilmişdi. 631-ci ilin oktyabr-dekabr ayları Piruz Xosrov Azərmdoxtu hakimiyyətə gətirdi [8, s.204].

Azərmdoxt hakimiyyətə gəldikdən sonra elan etdi ki, ölkənin idarəçiliyi atası II Xosrovun dövründə olduğu kimi müəyyən ediləcəkdir [5, s.77-81]. Həmin dövrdə Sasani dövlətində hakimiyyət uğrunda mübarizə aparan digər fraksiyanın – Parfiya fraksiyasının başçısı Fərrux Hörmüzd olmuşdu. O, Şimali İranda hərbi rəis (spahbed) kimi xidmət göstərmişdi. Parfiya nəslindən olan İspaxbudxanlardan idi. Fərrux Hörmüzd II Xosrovun 590-cı ildə hakimiyyətə gətirilməsində mühüm rol oynamış Vinduhun (Bendnih) oğlu idi. Fərrux Hörmüzd oğlu Rüstəmlə birlikdə Bizans-Sasani müharibələri zamanı(603-628) II Xosrova qarşı üsyan qaldırmışdı. Bu da Bizans imperatoru İrakliyə Adurbadaqana hücum etmək imkanı yaratmışdı. Təsadüfi deyil ki, hücum zamani bir-neçə şəhər, o cümlədən Taxti-Süleyman adlanan və Qazakada yerləşən Baş məbəd Adur Quşnəsp dağıdılmışdı [8, s.152-153]. II Xosrovun ölümündən sonra Sasani dövlətində başlanan ara müharibəsi zamanı Fərrux Hörmüzd Parfiya fraksiyasının başçısı kimi, siyasi sahədə mühüm yerlərdən birini tutdu. O, bütün siyasi proseslərdə çox fəal iştirak edirdi. Hətta Azərmdoxtdan əvvəl hakimiyyətdə olmuş Borandoxt onu hakimiyyətə gətirməkdə mühün rol oynamış Fərrux Hörmüzdü *vizurq tramidar*, yeni baş nazir vəzifəsinə təyin etmişdi [8, s.185].

Azərmdoxt hakimiyyətə qəldikdən sonra Fərrux Hörmüzd öz hakimiyyətini möhkəmləndirmək və özünə *modus vivendi* (latınca "həyat tərzi" deməkdir) yaratmaq düşüncəsi ilə bu Azəri qızına daha da yaxınlaşmaq qərarına qəldi. Bu məqsədlə Fərrux Hörmüzd Azərmdoxta onunla evlənməyi təklif etdi. Lakin Azərmdoxt bu təklifi rədd etdi [8, s.205-206]. Bu təklifdən imtina cavabı aldıqdan sonra Fərrux Hörmüzd mərkəzi hakimiyyətə tabe olmaqdan imtina etdi: "Bu gün mən xalqın lideri və İran ölkəsinin dayağıyam" deyib, şah kimi öz adına pul kəsdirməyə başladı. O, Fars əyalətin İstəxr şəhərində və Nahəvənddə mövqeyini möhkəmləndirdi. Bu fəaliyyətə görə bir sıra müəlliflər Fərrux Hörmüzdün də bir müddət İran şahənşahı olduğu fikrinə gəlmişlər [1, s.195]. S.B. Daşkov Fərrux Hörmüzdün özünü V Hörmüzd elan etməsindən bəhs edərək onu Sasani sülaləsi şahları siyhasına daxil etmişdir. Əslində isə bu dövrü İranda ikihakimiyyətlik kimi də qiymətləndirmək daha doğru olardı.

Lakin Azərmdoxtun dövlətçilik bacarığı sayəsində tezliklə Fərrux Hörmüzd zərərsizləşdirildi. Onunla mübarizə aparmaq məqsədilə Azermdoxt Siyavuşla birləşməyi qərara aldı. Siyavuş 590-cı ildə IV Hörmüzdün ölümündən sonra Ktesifonda hakimiyyətə gəlmiş və Mehranilər sülaləsinə mənsub olduğu təxmin edilən uzurpator Bəhram Çubinin

nəvəsi idi. Həmin dövrdə Siyavuş (bəzi mənbələrdə Siyavaxş kimi də adlanmışdır – M.Ə.) Rey əyalətini idarə edirdi. Məhz Siyavuşun köməyi ilə Azermdoxt Fərrux Hörmüzdü qətlə yetirərək ölkədə təkbaşına hakimiyyətini yaratdı [8, s.206]. Lakin çox keçmədi ki, Fərrux Hörmüzdün oğlu Rüstəm Fərruxzad atasının intiqamını almaq məqsədilə öz ordusu ilə Ktesifon üzərinə yürüş etdi. Rüstəm Fərruxzad Sasani dövlətinin hərbi başçılarından (*spahbed*) biri kimi hələ II Xosrovun dövründə xidmətə başlamışdı. Bir sıra məlumatlara görə, Rüstəm Fərruzad da Adurbadaqanda doğulmuş və hətta Sasani-Bizans müharibəsi zamanı (603-628) bu vilayətdə üsyan edənlərdən biri olmuşdu. Atası qətlə yetirilən zaman Rüstəm Xorasanda idi [5, s.79-80]. Atasının ölümündən sonra Parfiya fraksiyasına rəhbərlik Rüstəmə keçmişdi. Atasının intiqamını almaq məqsədilə  Rüstəm Ktesifon üzərinə hücuma keçmiş və "Azərmdoxtun göndərdiyi bütün orduların üzərində qələbə qazanmışdı" [8, s.210]. Daha sonra o, Ktesifonda Siyavuşun qüvvələrini də dağıdaraq şəhəri ələ keçirmişdi. Bundan  sonra Rüstəm Azərmdoxtun gözlərini cıxartdıraraq onu edam etdirmişdi.

Qeyd edildiyi kimi, Azərmdoxt hakimiyyətə gələn  kimi ölkəyə atası II Xosrovun idarə sistemi ilə rəhbərlik edəcəyini elan etmişdi. Hətta öz hakimiyyəti dövründə Azərmdoxt zərb etdirdiyi sikkələr üzərində atası II Xosrovu təsvir etdirmiş, digər tərəfində isə *Veretranı* (qələbə ilahəsi – M.Ə.) təmsil edən qanadlı tac təsvirini verdirmişdi. Azermdoxtun kəsdirdiyi pulların üzərində öz atasının təsvirini verməsində bir neçə məna var idi. Ən başlıcası, uzun müddət Sasani dövlətini idarə etmiş və bu dövləti heç vaxt əldə edə bilmədiyi böyük uğurlar səviyyinə qaldırmış II Xosrovun şəxsiyyətini yüksəltmək, ikincisi, öz atasına olan sevgisi və nəhayət, Sasani imperiysını II Xosrovun dövründəki qüdrətinə qaytarmaq istəyi Azərmdoxtu belə addım atmağa vadar etmişdi [8, s.210].

Azərmdoxt bütün hakimiyyəti dövründə öz ağlı və tədbirliliyi ilə hamını təəccübləndirmişdi. Bu faktı o dövrün bütün pəhləvi və ərəb mənbələri təsdiq edir. Azərmdoxtun Əsədabad qalasının tikintisini təşkil etməsindən də bir sıra mənbələr bəhs etmişdir. Təsadüfi deyil  ki, o "ədalətli", "adil" titulunu qazanmışdı.

İran şairi Əbülqasım Firdovsinin məşhur "Şahnamə" əsərində Azərmdoxt gözəl və ədalətli bir qadın kimi təsvir edilmişdir. Firdovsi Azərmdoxtu "ölümsüz" adlandırmış və onun Kəyan taxt-tacına sahib olduğu günü ölkənin tarixində yeni işıqlı sabah adlandırmışdı. Firdovsi qeyd etmişdi ki, Azərmdoxt Kəyan tacını başına qoydurduğu gündən, atası II Xosrovun ölümündəm sonra ölkədə baş verən özbaşınalıqlara və sosial geriliyə tədricən son qoyulacağını vəd etmişdi. Firdovsi həm də Azərmdoxtu həddindən artıq yumşaq siyasət yerütməsinə görə tənqid etmişdi. Lakin sonra böyük şair bunun ciddi nöqsan olmadığını söylənmişdi [4, s.406-407]. Bütün müsəlman mənbələrində də Azərmdoxt çox gözəl və ədalətli qadın hökmdar kimi təsvir edilmişdir. Ərəb mənbələrində Azərmdoxtdan xususi bir rəğbətlə bəhs edilmiş, adı ehtiramla cəkilmişdir.

Deməli, Azərmdoxt qadın olmasına baxmayaraq öz dövrünün bacarıqlı, ədalətli və tədbirli bir dövlət başçısı olmuşdur. Öz qısa hakimiyyəti  dövründə ölkədə dörd ildən bəri

davam edən ara müharibəsinə son qoymağa nail olmuş, ardınca da atasının dövründə mövcud olmuş qayda-qanunu bərpa etməyə başlamışdı. Azərmdoxt ölkədə qismən sabitliyə nail ola bilmişdi. O, bir sıra dövlət işlərində ölkənin bacarıqlı dövlət xadimləri ilə məsləhətləşmələr aparmış, aparıcı sərkərdələri dinləmişdi. Azərmdoxt başa düşürdü ki, ölkənin cənub-qərbində yaranmış ərəb təhlükəsi gələcəkdə Sasani imperiysı üçün ciddi problem yaradacaqdır. Bu məqsədlə, Azərmdoxt ərəblərlə müharibə aparmağın əleyhinə idi. O, ərəblərə dinc münasibətlər yaratmağın tərəfdarı idi. Hətta, Bizansla gələcək mübarizələrdə ərəblərin qüvvəsindən istifadə etmək kimi uzaqgörən təklifin tərəfdarı olmuşdu.

Azərmdoxtun hakimiyyət müddəti haqqında da müxtəlif fikirlər mövcuddur. S.B.Daşkov yazır ki, Azərmdoxt 631-ci ilin dekabırında, II Perozun ölümündən sonra hakimiyyətə gəlmiş və onun hakimiyyəti 632-ci ilin yaz-yayına qədər davam etmişdi [1, s.194]. "Şahnamə"də Azərmdoxtun cəmi dörd ay hakimiyyətdə qaldığı iddia edilir [4, s.407]. Purşariati Pərvanə isə Azərmdoxtun səkkiz və ya doqquz ay hakimiyyətdə olduğunu qeyd etmişdir [8, s.212]. Qeyd etmək lazımdır ki,istər o dövrün pəhləvi və ərəb mənbələri, istərsə də həmin dövrü özünə tədqiqat sahəsi seçən tarixçilər, hakimiyyətdə olma müddətindən asılı olmayaraq Azərmdoxtun hakimiyyət fəaliyyətini çox yüksək qiymətləndirmiş və onun hakimiyyət dövrünü II Xosrovun hakimiyyət illəri ilə müqayisə etmişlər.

II Xosrovun ölümü və III Yezdəgirdin hakimiyyətə gəlməsinə qədər olan dövrdə Sasani taxtında əyləşən ən ədalətli və bacarıqlı hökmdar Azərmdoxt olmuşdu. Azərmdoxt qadın olmasına baxmayaraq imperiyanı kişi kimi idarə etmiş və qətiyyətli qərarlar qəbul etmişdi. Azərmdoxt sübut etmişdi ki, insanın cinsindən asılı olmayaraq, onun müəyyən fəaliyyət sahəsi ilə məşğul olmasında, həmin insanın əqli keyfiyyətləri və prinsipiallığı əsas keyfiyyətlərdən biridir. Azərmdoxt hələ VII əsrdə insanlar arasında cinsi problemləri çözməyə çalışmış, qadın hökmdarın heç də kişi hökmdarlardan geridə qalmadığını sübut etmişdi.

## Ədəbiyyat

1. Дашков С.Б. (2008), Цари царей - Сасаниды. М.
2. Из анонимной сирийской хроники 1234г., глава 103. Восточная литература. Средневековые исторические источники востока и запада. Vostlit.info
3. Колесников А.И. (1970), Иран в начале VII в. «Палестинский сборник», Выпуск 22(85), Ленинград.
4. Фирдоуси А. (1989), Шахнаме. Т.VI (От начала царствования Йездгерда, сына Бахрама Гура до конца книги). Пер. с фарси Ц.Б.Бану-Лахути и В.Г.Берзнева. М.
5. Daryaee T. (2014), The Last Ruling Woman of iranshahr: Queen Azarmigduxt. International Journal of the Society of Iranian Archaelogy, vol.1, № 1.
6. Gignoux Ph. (1987), Azarmigduxt. Encyclopaedia Iranica. Vol III. Fasc.2.
7. Mehrdad K. (2016), The Persian Empire: A Historikal Encyclopedia. ABC-CL10.
8. Pourshariati P. (2008), Decline and Fall of the Sasanian Empire. The Sasanian-parthian Confederacy and the Arab Conqvest of Iran.London and New York. I.B.Tauris.